**Elmin Nicat**

# DİSANGELİON

Roman

QANUN NƏŞRİYYATI

**Elmin Nicat. Disangelion**
Bakı, Qanun Nəşriyyatı, 2026, 176 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 22.07.2026

Korrektor: Aytən Səadəti
Mətn dizaynı: Vüqar Nağıyev
Qapaq dizaynı: Rövşən Abbas

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-15-086-5

© Qanun Nəşriyyatı, 2026
© Elmin Nicat, 2026

Kitab müəllif tərəfindən redaktə
edilərək nəşriyyata təqdim olunub.
Redaktə və məzmun məsələlərinə
görə müəllif məsuliyyət daşıyır.

*Bütün xəyanət gördüyüm və*
*etdiyim insanlara ithaf olunur...*



*Hər xəyanət çarəsizliyə məhkum bir üsyandır*
*Sonu məğlubiyyətə düçar olan.*
*Və insan başqasının sınağında əsir qalmış acizdir*
*Öz hekayəsini uydurmağa çalışan.*
*Heç nə onun üçün deyilkən*
*Ortasında qaldı bir anda bu sonsuz xaosun*
*Sən ey əbədi sonluq, tez gəl,*
*Tez gəl ki, qonağı ola bilsin o mütləq yox oluşun*

# MÜNDƏRİCAT


Zülmət və Nur ........................................ 7

Ava ........................................ 15

İskaryot ........................................ 45

Aynalar və surətlər ........................................ 69

Üzləşmə ........................................ 97

Qayıdış ........................................ 135



# Zülmət və Nur

## 1

Uzun əsrlər keçmişdi.

İblis cəhənnəmdə, boz rəngli otağın ortasındakı taxtında oturmuşdu. Görkəmi təkəbbürdən və məğrurluqdan uzaqdı. Azca önə əyilmiş, sol qolunu dizinə söykəmiş, əyik başı ilə alnını ovuşdururdu.

Bu an qapı döyüldü. Ardınca köməkçisinin addım səsləri otaqda əks-səda yaratmışdı. İblis qamətini dikəldib qırmızı gözlərini ona zillədi. Bilirdi niyə gəldiyini.

– Yeni sakinlərimiz... – deyə sözə başlasa da, etinasızlıqla susdurdu onu:

– Lilit məni bu gün də xəbər almadı?

Köməkçi başını yırğaladı:

– Tapşırığına uyğun, işgəncələr hər gün daha da artır, amma...

– Amma o yenə məni çağırıb kömək diləmir, – deyə İblis özü davam etdi. – Təkəbbürlü qadın...

Çöhrəsində məyus bir təbəssüm yaranmışdı.

– Çıxa bilərsən.

– Başqa bir xəbər də var.

– De, – deyə bu dəfə qəzəblə baxışlarını ona zillədi.

– Xəbər göylər səltənətindəndir. Ulu Ruh... öz nurundan birini insanların arasına göndərəcək.

– Bunu həmişə edir onsuz.

– Bu dəfə başqadır deyirlər. Bu dəfə Ulu Ruh, Nurun övladı olaraq enəcək yer üzünə. Bakirə bir qadından doğularaq. Atası insan olmayan, yarı bir insan...

İblis susdu. Əlləri ilə taxtın qollarını sıxarkən xırıltı səsi otaqda əks-səda yaratmışdı.

– Başqa? – deyə qəzəblə soruşdu.

– Bu qədər.

Köməkçi çıxarkən, İblisin gözləri boz otaqda daha da qırmızı görünürdü.

## 2

Eşitdiyi xəbər nə qədər maraqlı görünsə də, bu barədə çox düşünmədi. Tək qaldıqdan sonra otaqda məqsədsiz addımlamağa başladı. Yenə Lilit düşdü ağlına. Ulu Ruh daim onu xatırladırdı İblisə. Cəhənnəmə məhkum ediləndən bəri görməmiş, vətəni həsrətinə çevrilmişdi. Ən pisi isə bu idi ki, Lilit nə onu çağırmış, nə görüşmək istədiyini bildirmiş, nə də mərhəmət diləmişdi. İblis hər gün onun haqqında

soruşsa da, bunun bir mənası olmamışdı. Öz səltənətində yox sayılmaq onu daha çox incitdiyindən qəti tapşırıq vermişdi:

“Ən çox əzabı ona verin!”.

Əmr yerinə yetirildikdən sonra Lilit diz çökmüşdü verilən əzablara. Fəryadı cəhənnəmin burulğanında əks-səda yaratsa da, yenə də İblisin adı çıxmamışdı dilindən.

Otağının qapısını açıb səltənətinin qaranlığına doğru addımlamağa başladı. Uzun zamandan sonra fikrini dəyişmiş, cəhənnəmin dərinliklərinə enmək qərarına gəlmişdi.

Hücrələrin önündən keçərkən nə fəryadlara, nə yalvarışlara fikir verdi, çünki baş verən bu faciə onun əsəri deyildi.

Hara getdiyini bilirdi.

Az sonra qarşısında dayandığı hücrədən gələn qışqırıq ona kədərli sevgisini xatırlatmışdı yenidən.

İblis bir dəfə daha məğlub olmuşdu Lilitə.

## 3

Əlini uzadıb hücrənin qapısına toxunduqda buz kimi soyuqluq hiss etdi. Bir an tərəddüd etsə də, dayanmadı. Qapını itələyib açdı.

Zəbani arxaya çevriləndə İblisi gördü. “Çıx” tapşırığını aldıqdan sonra deyiləni edib arxasından qapını bağladı.

Lilit zəncirlənmişdi. Bir zamanlar Günəşi xatırladan saçları, Ay kimi parlaq olan çöhrəsi indi yanıq və yaralar içində idi.

İblis yaxınlaşıb, köksünə enmiş başını qaldıraraq gözlərinə baxdı onun.

– Qürurun səni məhv etdi... – Kədər vardı baxışlarında.

– Cəhənnəmi yaşayan insanların qüruru olmur, – Lilit pıçıltıyla cavab verdi.

İblis əlini çəkdikdən sonra hücrədə bir neçə addım yeridi.

– Niyə məndən kömək istəmədin? – Qarşısında dayanmışdı təkrar.

– Burada olduğumu bilirdin.

– Yenə də dilindən eşitmək gözəl olardı.

– Özünü aldatma. Sevdiyin insanlara əzab verməyə məhkumsan. Bu sənin lənətindir.

– Hamıdan çox sənə əzab verilməsini mən əmr etmişəm. Sən də bunu unutma.

– Bu da sənin xislətindir.

– Mənim yox... Sevginin.

Sükut çökdü bir an.

– Bu qədər vaxtdan sonra niyə gəlmisən? – Lilit.

– Ulu Ruh...

– Ondan mənə heç nə demə, – deyə sözünü kəssə də.

– Atası insan olmayan, bakirə bir qadından Nurun övladını dünyaya göndərəcək, – deyə yenidən davam etdi cümləsinə.

– Bundan mənə nə? Mən artıq dünyada deyiləm.

– Maraqlı gələr deyə düşündüm.

– Səhv düşünmüsən.

Susmuş İblis, həsrət dolu gözlər və təəssüflə baxdı ona. Bu qadını cəhənnəm belə dəyişməmişdi.

Hücrənin çıxışına doğru addımlayıb qapını açarkən Lilitin pıçıltısı eşidildi təkrar: